**UOT:781.**

# FERENTS LİSTİN YARADICILIĞININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Abbasova Svetlana Cəlal qızı***
***Gəncə Dövlət Universiteti***
***sabbasova. 050@gmail.com***

**Xülasə:** *Məqalə dünya musiqi mədəniyyətinin parlaq nümayəndəsi Ferents Listin yaradıcılığının əsas xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur.*

*F.List görkəmli bəstəkar olmaqla yanaşı həm də virtuoz pianoçu idi. Bununla yanaşı o gözəl pedaqoq, istedadlı dirijor, bacarıqlı musiqi tənqidçisi, yazıçı və ictimai xadim kimi tanınmışdır.*

*Mövzu ilə bağlı elmi-pedaqoji ədəbiyyatın təhlil göstərir ki, tədqiqatçılar tərəfindən List musiqisinin müxtəlif cəhətlərində - melodika, harmoniya, ritmika, lad kökündə macar musiqisinin xüsusən "verbunkoş" adlanan şəhər musiqisi üslubunun təsiri xüsusi ilə vurğulanır.*

*Proqramlı musiqiyə üstünlük verən bəstəkarın yaradıcılığı həm miqyasca çox geniş, həm də novatorluğu etibarilə əhəmiyyətlidir.*

*Romantizm bayrağı altında inkişaf edən XIX əsr Avropa musiqi mədəniyyətinin, romantizmin yetkinlik dövrünün görkəmli nümayəndəsi, macar milli məktəbinin yaradıcısı F.Listin yaradıcılıq irsi tanınmış musiqiçilərin reperturında, eyni zamanda tədris repertuarlarında geniş yer tutur.*

**Açar sözlər:** Ferents List, musiqi, bəstəkar, yaradıcılıq, ifaçılıq.
**Ключевые слова:** Ференц Лист, музыка, композитор, творчество, исполнительство.
**Key words:** Ferents List, music, composer,creativy, performanse.

Dahi macar bəstəkarı Ferents Listin (1811-1886) adı dünya musiqi mədəniyyətində görkəmli bəstəkar və virtuoz pianoçu, romantizmin yetkinlik dövrünün görkəmli nümayəndəsi kimi mühüm yer tutur.

F.Listin yaradıcılığının proqressivliyi, demokratikliyi macar xalqının azadlıq mübarizəsindən irəli gəlir.

12 yaşından Vətəninin hüdudlarından kənarda yaşamasına baxmayaraq bəstəkar ömrünün axırına qədər xalqının sadiq oğlu olaraq qalır, Vətənini sevir və onun musiqi həyatının inkişafına bacardığı qədər köməklik edirdi. List macar xalq mahnı və rəqsləri əsasında 19 "Macar rapsodiyası"nı (fortepiano və orkestr üçün), "Macarıstan" simfonik poemasını və s. bir sıra əsərlərini macar xalqına həsr etmişdir.

Qeyd edək ki, romantizm dövrünədək Avropa musiqisinin inkişafında aparıcı rolu İtaliya, Avstriya, Almaniya kimi ölkələr oynayırdırsa, XIX əsrdə bir çox ölkələrdə milli yeni milli bəstəkarlıq məkəbləri yaranır və həmin məktəblər Avropa miqyasında tanınaraq çiçəklənməyə başlayır. Macar milli bəstəkarlıq məktəbinin başında isə Ferents List dayanmışdır. Bəstəkar 1873-cü ildə List Budapeşt musiqi Akademiyasının ilk prezidenti təyin olunub. İndiyədək Macarıstanda ən yüksək peşəkarlığa malik ifacılar List mükafatı ilə təltif edilir.

List macar bəstəkarı olmasına baxmayaraq, onun yaradıcılığı bir çox ölkələr ilə, xüsusi ilə Almaniya, Fransa kimi ölkələrlə sıx bağlı olmuşdur. Bəstəkar uzun müddət Almaniyanın Veymar şəhərində yaşamış, R.Vaqner və digər alman bəstəkarları ilə dostluq və yaradıcılıq əlaqələri saxlamışdır. Təsadüfi deyil ki, bəstəkarlar List ətrafında birləşərək 1854-cü ildə "Veymar məktəbi"ni yaratmışlar.

List F.Mendelsondan sonra böhran dövrü keçirən Leypsiq konservatoriyasını ayağa qaldırmış, klassik musiqini, Bax, Motsart və Bethovenin əsərlərini geniş təbliğ etmişdir.

F.Listin yaradıcılığı həm miqyasca çox geniş, həm də novatorluğu etibarilə əhəmiyyətlidir. Bəstəkar musiqini məzmun, mövzu və obrazlar cəhətdən zənginləşdirmiş, eyni zamanda janr və formalara münasibətdə novator mövqeyindən çıxış etmişdir.

List proqramlı simfonizmin görkəmli nümayəndəsidir. Ümumiləşmiş proqramlılığın tərəfdarı olan bəstəkar müraciət etdiyi ədəbi əsərin bütün təfərrüatını deyil, əsas ideyasını, ümumiləşmiş məzmununu öz əsərlərində təcəsüm etdirir. F.List birhissəli proqramlı simfonik poema janrının yaradıcısıdır.

Fortepiano, simfonik xor, vokal əsərləri Listin yaradıcılığında özünəməxsus geniş yer tapır. Simfonik orkestr üçün bəstəkar 13 simfonik poema (“Orfey”, “Prometey”, “Mazepa”, “Hamlet”), iki simfoniya (“Faust” və “Dante”), bir sıra konsert əsərlərini yazıb. Xor əsərlərindən oratoriya, messa və kiçik xor üçün əsərlər, fortepiano üçün konsert, kiçik proqramlı əsərləri qeyd etmək olar.

List musiqi tarixinə həm də görkəmli pianoçu kimi daxil olmuşdur. O, öz virtuozluğu ilə fortepiano ifaçılıq tarixində parlaq bir səhifə açmışdır. Onun pianoçuluq məharəti mürəkkəb, texniki cəhətdən çətin olan əsərlərində özünü nümayiş etdirir.

Tədqiqatçı - alim Şəhla Həsənova bəstəkarın fortepiano yaradıcılığını iki böyük hissəyə ayırır: 1) Listin orijinal əsərləri; 2) başqa bəstəkarların mövzuları əsasında yaratdığı parafrazlar və transkripsiyalar [3.50].

Orijinal əsərlərə “Səyyahın albomu”, “Səyahət illəri” (3 cilddə), “Macarıstan tarixi portretləri”, “19 macar rapsodiyası” kimi pyes silsilələri, “Transsendent ifa etüdləri”, Paqanini kaprisləri əsasında etüdlər, ayrıca yazılmış (bu silsilələrə daxil olmayan) etüdlər, müxtəlif bəstəkarların (Bax, Diabelli, Rossini) mövzuları əsasında variasiyalar, “İspan rapsodiyası”, valsar, qaloplar, çardaşlar, “Mefisto-vals”, “Mefisto-polka”, “Rakotsi-marş”, Sonata (h-moll) və b.əsərlər aiddir.

Bir növ musiqi gündəliyi oln “Səyahət illəri”-Listin İsveçrəyə (I cild, 1835-1854) və İtaliyaya (II cild, 1838-1849) səfəri nəticəsində yazılmışdır. I cilddə (buna səyahətin “I ili” də deyilir) bəstəkarın İsveçrənin əsrarəngiz təbiəti, şəhərlərinin gözəlliyindən aldığı təəssürat əks olunub: “Vallenştadt gölündə”, “Oberman vadisi”, “Cenevrə zəngləri”, “Vilhelm Tell kilsəsi” və s. II cilddə (və ya “II il”də) İtaliyanın ədəbiyyatı və incəsənəti ilə bağlı təəssüratlar verilmişdir: “Nişanlanma”(Rafaelin əsəri əsasında), “Mütəfəkkir” (Mikelancelonun əsəri əsasında), “Danteni oxuyarkən” adlı sonata – fantaziya, “Petrarkanın üç soneti” (Petrarka – İntibah dövrünün italyan şairi, sonet – lirik şer növüdür) və s. aiddir. II cild daxilində “Venesiya və Neapol” adlı kiçik əlavə silsilə də var ki, buraya italyan xalq musiqisi ilə balı pyeslər aiddir – “Kansona” (italyan mahnısıdır), “Tarantella” (italyan rəqsidir) və s. III cildə (1867-1877) – “Angelus”, “Matəm yürüşü”, “D Este villasının fəvvarələri” və s. pyeslər aiddir.

F.List etüd janrına böyük yeniliklər gətirmişdir. O, proqramlı etüdün yaradıcısıdır. “Transsendent ifa etüdləri” silsiləsindəki 12 etütdən 10-nun proqramlı adı var: “Coşğun”, “Axşam harmoniyaları” və s. [3.51]. List bir etüddə pianoçuluq texnikasının müxtəlif üsullarından (oktava, arpecio, passaj və s.) istifadə edir ki, bu cəhət bəstəkarın etüdlərində etdiyi daha bir yenilik idi.

Transkripsiya – List tərəfindən digər bəstəkarların fortepiano üçün yazılmayan əsərinin (simfonik və s.) olduğu kimi fortepiano üçün köçürmələridir. Prafraza isə başqa bəstəkarın mövzusu əsasında Listin yaratdığı sərbəst formalı əsərlərdir.

Rus musiqisinə xüsusi münasibəti olan List Qlinkanın “Ruslan və Lüdmila” operasından “Çernamorun marşı”, Çaykovskinin “Yevgeni Onegin” operasından polonez, Alyabyevin “Bülbül” və sairə kimi bir çox əsərlərini fortepiano üçün transkripsiya etmişdir. Bəstəkar, həmçiniin Şubertin. Şumanın mahnılarını, Verdinin, Qunonun operalarından parçaları və bir çox başqa əsərləri fortepiano üçün işləmişdir. Listin etdiyi transkripsiyalar simfonik, vokal və opera musiqisinin geniş təbliği üçün mühüm əhəmiyyət kəsb edir.

Professor S.Qurbanəliyevanın "Mirzə Şəfi Vazeh və musiqi" adlı monoqrafiyasında Azərbaycanın görkəmli şairi və tanınmış maarifçi Mirzə Şəfi Vazehin və bəstəkar Ferent Listin yaradıcılığını əlaqələndirən maraqlı faktlar işıqlandırılmışdır. Müəllif göstərir ki, 1879-cu ildə List Gəncəli müdrik, şair və maarifçi Mirzə Şəfi Vazehin poeziyasına müraciət edərək "Einst" adlı romansını yazır. Bu vokal miniatürdə biz Vazeh poeziyasının gözəl nümunələrindən birinin musiqi ilə maraqlı sintezinin şahidi oluruq. [3.40]. "Einst" romansının (alman dilində tərcümədə "başlanğıc, keçmiş (zaman, vaxt) gələcək deməkdir) poetik mətni Mirzə Şəfi Vazehin "Sənə bir dəstə gül vermək istədim" şeirinə aiddir [3.43].

"Böyük List və böyük Şəfi. İki xalqın iki vahidi, iki mənəvi dünyası qaynayıb-qovuşmuş, ayrılmaz vahid bir aləm yaratmışdır" [4].

***Ədəbiyyat***


1. Əfəndiyeva E. Musiqi tarixi. BakI, 2014.
2. Həsənova S. Musiqi tarixindən mühazirələr. Bakı, 2008.
3. Qurbanəliyeva S. Mirzə Şəfi Vazeh və musiqi. Bakı, 2014.
4. Mustafayev F. Sənə bir dəstə gül vermək istədim (Ferents Listin Gəncə səfəri və Mirzə Şəfi Vazeh şeirinə müraciəti). "Ədəbiyyat və incəsənət" qəzeti, 1973-cü il, 7 noyabr.

Rus dilində:

5. Будяковский А. Ференс Лист. Санкт-Петербург, 2012.
6. Друскин М. История зарубежных музыки. Москва, 1976.
7. Ферман В. История новой западно-европейской музыки. Москва, 1977.

Saytoqrafiya

1. Məktəblinin Elektron Musiqi Kitabxanası: http://mk.musigi-dunya.az
2. "Musiqi dünyası" elektron jurnalı. http://www.musiqi-dunya/az
3. Muğam ensiklopediyası: http://muğam.musigi-dunya.az
4. Musiqiçinin elektron kitabxanası: http://e-library.musigi-dunya.az
5. "Harmony" beynəlxalq musiqi-kulturoloji jurnal: http://harmony.musigi-dunya.az.


## ОСНОВНЫЕ ЧЕРТЫ ТВОРЧЕСТВА ФЕРЕНЦА ЛИСТА

***Аббасова Светлана Джалал кызы***

***Резюме***

Ф.Лист- выдающийся композитор XIX века, гениальный новатор-пианист и дирижёр является национальной гордостью венгерского народа.

Творчества Ф.Листа представляет большой интерес как яркое, значительное явление в музыкальной культуре во всем мире.

## THE MAİN PECULİARİTİES FERENTS LİST S CREATİVİTY

***Abbasova Svetlana Calal***

***Summary***

F.List-the prominent composer of the 19th century, the genius innovator, pianist and conductor- is the national pride of the Hungarian people.

Creativity of Ferents List is of great interest as a bright siqnificant phenomenon in the musical culture thronghoun the world.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının baş müəllimi R.Məmmədova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasnın 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***